

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 3 (21.155)

7 yanvar 2015-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Şərur rayonunun Püsyan kəndində yeni sosial obyektlər istifadəyə verilmişdir

Naxçıvan Muxtar Respublikası 2014-cü ili bütün sahələrdə qazanılan uğurlarla başa vurdu. Ötən il quruculuq tədbirlərinin əhatə dairəsi xeyli genişlənmiş, 30-a yaxın kənd yaşayış məntəqəsində müxtəliftəyinatlı obyektlər tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir. Ardıcıl şəkildə aparılan quruculuq işləri kəndlərdə infrastrukturun yenilənməsinə, əhalinin rahatlığının təmin olunmasına səbəb olmuşdur.

Bu istiqamətdə həyata keçirilən tədbirlər çərçivəsində yanvarın 6-da Şərur rayonunun Püsyan kəndində yeni sosial obyektlər istifadəyə verilmişdir.

## 2015-ci ildə ilk məktəb binası Püsyan kəndində istifadəyə verilmişdir

Yanvarın 6-da Püsyan kənd tam orta məktəbinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Tədbirdə məktəbin direktoru Ülkər Nağıyeva çıxış edərək demişdir ki, Püsyan kəndi muxtar respublikanın müasir yaşayış məntəqələrinin sırasına qoşulmuşdur. Aparılan quruculuq işləri digər sahələrlə yanaşı, kənddə təhsilin inkişafına da öz töhfəsini verəcəkdir. Hər cür maddi-texniki bazaya malik olan müasir məktəb binasının istifadəyə verilməsini kollektiv, eləcə də kənd sakinləri sevinclə qarşılayırlar. Ülkər Nağıyeva yaradılan şəraitə görə kollektiv adından minnətdarlıq etmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Püsyan kənd tam orta məktəbinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik etmiş, onlara gələcək tədrisdə uğurlar arzulayaraq demişdir: "Bu gün ölkəmizdə məktəb işi ümumxalq, ümumdövlət işinə çevrilmişdir. Hər bir kənddə, hər bir yaşayış məntəqəsində yeni məktəb binaları tikilərək istifadəyə verilir. Çünki məktəb tikintisi ölkəmizin gələcəyinə xidmət edir, məktəblərdə ölkəmizin gələcək təminatçıları olan gənc nəsil yetişir. Bu amili yüksək qiymətləndirən ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***"Məktəb təhsil verməklə yanaşı, eyni zamanda gəncləri müstəqil həyata hazırlayan tərbiyə ocağıdır".***





Ali Məclisin Sədri demişdir: "Hər bir gənc orta məktəbdə təhsil almaqla yanaşı, həm də peşə seçməli, özünü ölkənin gələcəyinə hazırlamalıdır. Ölkəmizdə bu məsələ daim diqqət mərkəzində saxlanılır, təhsilin inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Çünki təhsilə göstərilən qayğı ölkənin gələcəyinə göstərilən qayğı, təhsilə qoyulan sərmayə isə ölkənin gələcəyinə qoyulan sərmayədir. Bu amil hər bir ölkənin gələcək inkişaf yolunun təhsildən keçdiyini bir daha təsdiq edir. Püsyan kənd tam orta məktəbi üçün yeni binanın istifadəyə verilməsi, yaradılan müasir tədris şəraiti də ölkəmizdə təhsilin inkişafına göstərilən qayğının daha bir ifadəsidir. Məktəbdə elektron lövhəli siniflər, internetə qoşulmuş kompüter otaqları, laboratoriyalar, hərbi kabinə, idman qurğuları və digər müasir tədris avadanlıqları kollektivin istifadəsinə verilmişdir. Bütün bunlar da məktəbdə təhsilli və sağlam gənc nəslin yetişdirilməsinə imkan verəcəkdir. Gənclərə yaxşı təhsil vermək, onları gələcəyə hazırlamaq, hər bir şagirdə bacarığına uyğun olaraq peşə seçimində köməklik göstərmək müəllimlərin qarşısında duran əsas vəzifələrdir".

Məktəbin təhsil sahəsindəki nəticələrinə diqqəti çəkən Ali Məclisin Sədri demişdir: "Püsyan kənd tam orta məktəbinin nailiyyətləri muxtar respublikanın ümumtəhsil məktəblərinin orta göstəricilərindən aşağıdır. Ona görə də müəllimlər yaradılan şəraitdən səmərəli istifadə etməli, məktəbin nailiyyətləri artırılmalıdır. Bu işdə məktəb kollektivi ilə yanaşı, kənd ictimaiyyətinin nümayəndələri, xüsusilə ailələr yaxından iştirak etməli, məktəb-ailə münasibətləri düzgün qurulmalı, təhsilli və vətənpərvər gənclər



yetişdirilməlidir".

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin icrasında kollektivə uğurlar arzulamış, açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, 4 mərtəbədən ibarət olan məktəb binası 792 şagird yerlikdir. Binada 46 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat otağı, 2 kompüter otağı, 2 müəllimlər otağı, 4 elektron lövhəli sinif, kitabxana, bufet, idman zalı və açıq idman qurğuları istifadəyə verilmişdir.

Məktəbin kitabxana fondunda 8 mindən artıq kitab vardır. Kimya, biologiya və fizika laboratoriyalarında müxtəlif cihaz və alətlər qoyulmuş, müasir tədris şəraiti yaradılmışdır.

Ali Məclisin Sədri birinci siniflərdə oxuyan şagirdlərin dərs prosesi ilə maraqlanmışdır. Bildirilmişdir ki, 2014-2015-ci tədris ilində Püsyan kənd tam orta məktəbində birinci sinfə 31 şagird qəbul olunmuşdur. Şagirdlərin məktəbəhazırlıq kurslarına cəlb edilməsi onların ilk günlərdən məktəb auditoriyasına uyğunlaşmasına, keçilən dərs və məşğələlərdə fəal iştirakına səbəb olmuşdur.

Kompüter siniflərində 38 kompüter dəsti quraşdırılmış və internetə qoşulmuşdur. Bu da məktəbdə yeni texnologiyaların imkanlarından səmərəli istifadə olunmasına, eləcə də tədrisyönümlü saytlar vasitəsilə keçilən mövzuların daha dərindən qavranılmasına şərait yaradacaqdır.

Elektron lövhəli siniflər də bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Bu avadanlıqlar təhsil ocaqları arasında elektron tədris mübadiləsinin aparılmasına, müştərək dərslərin keçirilməsinə imkan verir. Baxış zamanı muxtar respublikanın 210 ümumtəhsil məktəbi ilə Cəmşid Naxçıvanskinin ev-muzeyi arasında interaktiv əlaqə yaradılmış və keçilən dərs nümayiş olunmuşdur.

Məktəbdə şagirdlərin ilkin hərbi biliklərə yiyələnməsi və vətənpərvərlik ruhunda tərbiyəsi diqqət mərkəzində saxlanılır. Son illər Püsyan kənd tam orta məktəbindən Heydər Əliyev adına Hərbi Liseyə 21 şagird qəbul olunmuşdur. Onlardan 5-i hazırda müxtəlif ali hərbi məktəblərdə təhsillərini davam etdirir. Hərbi kabinədə yaradılan şərait gənclərin bu sahəyə olan marağını daha da artıracaqdır.

Püsyan kənd tam orta məktəbində idman dərslərinin yüksək səviyyədə tədris olunması üçün bütün imkanlar yaradılmış, müasir idman zalı istifadəyə verilmiş, həyətdə açıq idman qurğuları quraşdırılmışdır.

Məktəbin müəllimləri ilə görüşən Ali Məclisin Sədri demişdir: "Təhsil hər bir ölkənin inkişaf göstəricisidir. Bu gün təhsil sahəsində qazanılan nailiyyətlər ölkəmizin gələcəyinin uğurlu olacağından xəbər verir. Muxtar respublikada da təhsilin inkişafına xüsusi diqqət yetirilir. Göstərilən qayğının nəticəsidir ki, muxtar respublikada orta, peşə, orta ixtisas və ali təhsil pillələri üzrə təhsil müəssisələrinin fəaliyyəti təmin olunmuşdur. Məktəblərdə gənclərin bilikli, vətənpərvər və dünyagörüşlü formalaşması diqqət mərkəzində saxlanılmalıdır. Püsyan kəndində müasir məktəb binasının istifadəyə verilməsi gələcəkdə nailiyyətlərin daha da artırılmasına imkan verəcək, məktəb muxtar respublikanın qabaqcıl təhsil ocaqlarından birinə çevriləcəkdir".

Məktəbin müəllimləri Saqiyə Quliyeva və Ərkinaz Abbasova pedaqoji kollektiv adından minnətdarlıq etmiş, təhsilli və vətənpərvər gənclər yetişdirəcəklərinə söz vermişlər.

Məktəbin həyətində də geniş abadlıq işləri aparılmışdır.

Ardı 2-ci səhifədə

# Püsyan kənd həkim ambulatoriyasında sakinlərə hərtərəfli səhiyyə xidməti göstəriləcəkdir





Muxtar respublikanın kəndlərində aparılan tikinti-quruculuq işləri kompleks xarakter daşıyır. Ən ucqar kəndlərdə belə, bütün zəruri istiqamətlər üzrə, o cümlədən səhiyyə sahəsini əhatə edən müasir obyektlər tikilib istifadəyə verilir. Püsyanda xəstəxanatipli həkim ambulatoriyasının inşa olunması da kənddə həyata keçirilən kompleks quruculuq işlərinin tərkib hissəsidir.

Yanvarın 6-da həkim ambulatoriyası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, ambulatoriyada yaradılan şəraitlə maraqlanmışdır.

Bildirilmişdir ki, ikimərtəbəli ambulatoriya 13 otaqdan ibarətdir. Burada baş həkim, ginekoloq, doğuş, pediatr, peyvənd, mama, tibb bacısı, qeydiyyat, müayinə, manipulyasiya otaqları, stomatoloji kabinə, palata və aptek vardır.

Səhiyyə ocağında müasir avadanlıqlar quraşdırılmış, tibb işçilərinin səmərəli fəaliyyəti təmin olunmuşdur. Bu da sakinlərə göstərilən səhiyyə xidmətinin keyfiyyətini xeyli yüksəldəcəkdir.

Ali Məclisin Sədri kənddə tibbi maarifləndirmə işinin aparılmasının, uşaq və hamilə qadınların vaxtlı-vaxtında müayinədən keçirilməsinin vacibliyini vurğulamış, əhaliyə göstərilən səhiyyə xidmətinin keyfiyyətinin yüksəldilməsi ilə bağlı tapşırıqlar vermişdir.

Binada müasir istilik sistemi quraşdırılmış, həyətdə abadlıq işləri aparılmış, gülkarlıqlar salınmışdır.

# Kənd mərkəzində dövlət qurumlarının səmərəli fəaliyyəti təmin olunmuşdur





Püsyan kəndində həyata keçirilən quruculuq işləri çərçivəsində yeni kənd mərkəzi də inşa olunmuşdur.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov kənd mərkəzinin də açılışını etmişdir.

Mərkəzlə tanışlıq zamanı məlumat verilmişdir ki, iki mərtəbədən ibarət olan binada rabitə evi, kitabxana, polis sahə və baytarlıq məntəqələri, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, mədəniyyət evi, klub və 70 yerlik iclas zalı yerləşir. Ayrı-ayrı təşkilatların bir mərkəzdə fəaliyyət göstərməsi əhaliyə nümunəvi xidmət göstərilməsinə imkan verəcəkdir.

Mərkəzdə kitabxana işi də səmərəli təşkil olunmuş, 6 mindən artıq ədəbiyyat fondu olan kitabxana yaradılmışdır.

Müasir texnoloji avadanlıqlarla təchiz olunan rabitə evində elektron ATS quraşdırılmış, poçt bölməsinin fəaliyyəti təşkil olunmuşdur. Hazırda burada Püsyan və Təzəkənd kəndlərini əhatə etməklə 455 abonentə telefon xidməti göstərilir.

Binada Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı üçün də iş otağı ayrılmışdır. Hazırda təşkilatın 243 üzvü vardır. Onlardan 92-si gənclər, 46-sı isə qadınlardır.

Baytarlıq məntəqəsi Püsyan və Təzəkənd kəndlərini əhatə edir. Məntəqədə lazımi dərman preparatlarının və səyyar tibb avadanlıqlarının qoyulması profilaktika tədbirlərinin vaxtında təşkilinə imkan verəcəkdir. Bildirilmişdir ki, Püsyan kəndində 4 min başdan artıq iribuynuzlu, 13 min baş xırdabuynuzlu və 14 min baş quş saxlanılır. Mütəmadi olaraq təsərrüfatlarda dezinfeksiya işlərinin aparılması, süni mayalanma tədbirlərinin genişləndirilməsi xəstəliklərin qarşısının alınmasına və malqaranın baş sayının ilbəil artmasına səbəb olmuşdur.

# Püsyanda xidmət mərkəzi istifadəyə verilmişdir






Həmin gün Püsyan kəndində yeni xidmət mərkəzinin də açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov xidmət mərkəzində yaradılan şəraitlə tanış olmuşdur.

İki mərtəbədən ibarət olan xidmət mərkəzində bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq, sənaye və təsərrüfat malları olmaqla, 3 mağaza fəaliyyət göstərir. Xidmət mərkəzinin istifadəyə verilməsi ilə sakinlərin lazımi ərzaq və sənaye mallarına olan tələbatları öz kəndlərində ödəniləcəkdir. Mərkəzdə 9 nəfər işlə təmin olunmuşdur.

Ali Məclisin Sədri xidmət mərkəzi ilə tanışlıqdan sonra sakinlərlə görüşmüş və demişdir ki, Püsyan kəndinin sakinləri zəhmətkeş insanlardır. Kəndin tarixən yaxşı ənənələri olmuş, ölkəmizdə və ondan kənarda tanınan ziyalılar yetirmişdir. Gələcəkdə də kənddə inkişafın davamlı olması üçün ardıcıl tədbirlər həyata keçiriləcəkdir. Kənddə aparılan quruculuq işləri, yaradılan müasir infrastruktur dövlətimizin iqtisadi qüdrətinin göstəricisidir. Bundan sonra əsas vəzifə sakinlərin, kənd ictimaiyyətinin üzərinə düşür. Tikilənlər, qurulanlar qorunub saxlanılmalı, onlardan səmərəli istifadə olunmalı, təsərrüfatlar inkişaf etdirilməlidir.

Kənd sakini Şükür Əsgərli demişdir ki, Püsyan kəndində məktəb binasının, həkim ambulatoriyasının, müasir yolun, kənd və xidmət mərkəzlərinin tikintisi sakinlərin böyük sevincinə səbəb olmuşdur. Hələ ötən əsrin 90-cı illərində muxtar respublikada ilk dəfə özəl nümunəvi təsərrüfat Püsyan kəndində yaradılmış, yeraltı suvarma şəbəkəsi qurulmuşdur. Bu gün də sakinlər bundan geniş istifadə edir. Ötən dövrdə kənddə həyata keçirilən tədbirlər insanların rahat yaşayışına səbəb olmuşdur. Kənd sakinləri əmindirlər ki, ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin ölkəmizdə, eləcə də muxtar respublikada uğurla davam etdirilməsi

*Ardı 3-cü səhifədə*

Azərbaycanı və onun hər bir yaşayış məntəqəsini daha sürətli inkişafa qovuşduracaqdır. Püsyan kənd sakinləri bundan sonra da dahi şəxsiyyətin siyasi xəttinə sadiq qalaraq ölkəmizin inkişafına öz töhfələrini verəcəklər.

* * *

Aparılan kompleks tikinti-quruculuq işləri zamanı Naxçıvan-Sədərək magistral avtomobil yolundan Püsyan kəndinədək, eləcə də kənddaxili 5,4 kilometr yola asfalt örtük salınmış, hərəkətin rahatlığı və təhlükəsizliyi təmin olunmuş, yol nişanları quraşdırılmışdır. Yolun uzunmüddətli istismarı məqsədilə də zəruri tədbirlər görülmüş, 33 su keçidi, 940 metr məsafədə beton kanal çəkilmiş, 10 kilometr məsafədə məhəllələrarası yollar təmir olunmuşdur. Həmçinin kəndin rabitə, elektrik, qaz və su təchizatı da yaxşılaşdırılmışdır. Kənddaxili 400 metr fiber-optik, ümumi uzunluğu 14,7 kilometr olan yerüstü və 2,5 kilometr olan yeraltı rabitə, 1,5 kilometr elektrik xətləri çəkilmişdir. Həmçinin yeni tikililərə 360 metr uzunluğunda qaz xətti çəkilmiş, 478 metr suvarma kanalı və 590 metr kənddaxili su arxları təmizlənilmişdir.



## Kəngərli rayonunun Qıvraq qəsəbəsində yeni xidmət kompleksi tikilir



Muxtar respublikada həyata keçirilən tikinti-quruculuq işləri Kəngərli rayonunun da simasını başdan-başa dəyişmişdir. Rayon mərkəzi Qıvraq qəsəbəsində yeni inzibati binaların və sosial obyektlərin inşası ilə yanaşı, müxtəlif xidmət sahələrinin yaradılması da diqqət mərkəzində saxlanılır. Bu tədbirlərin davamı olaraq, Qıvraq qəsəbəsində yeni xidmət mərkəzi kompleksi inşa olunur.

Yanvarın 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Qıvraq qəsəbəsinə gəlmiş, obyektdə aparılan tikinti işləri ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, kompleksə 3 mərtəbəli ticarət mərkəzi, mağazalar, şadlıq evi və digər xidmət sahələri daxildir. Ticarət mərkəzinin birinci mərtəbəsində qapalı bazar, ikinci mərtəbəsində müxtəliftəyinatlı dükanlar, üçüncü mərtəbəsində isə 300 yerlik şadlıq evi yerləşəcəkdir. Həmçinin binanın həyətində 12 mağaza və açıq bazar fəaliyyət göstərəcəkdir. Hazırda obyektdə son tamamlama işləri görülür. Müasir dizayn əsasında inşa olunan binada insanların istirahəti və asudə vaxtları səmərəli təşkil olunacaq, qəsəbə sakinlərinə nümunəvi iaşə xidməti göstəriləcəkdir.

Ali Məclisin Sədri tikinti işlərinin keyfiyyətlə aparılması barədə müvafiq tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## 2015-ci il "Kənd təsərrüfatı ili"dir

*XXI əsrin on dördüncü ili muxtar respublikanın tarixinə "Muxtariyyət ili" kimi yazıldı. Ölkə və beynəlxalq səviyyəli konfranslar, simpoziumlar, möhtəşəm idman yarışları, sərgilər, kitab təqdimatları ilə zəngin olan 2014-cü il hər bir naxçıvanlının taleyinə öz izlərini nəqş etdi. Tarix üçün çox da böyük müddət olmayan bir ilin də necə gəlib keçdiyinin fərqinə vara bilməsək də, bu gün diyarımızın salnaməsinə ötən il həkk olunan saysız-hesabsız genişmiqyaslı quruculuq ərməğanları, unuda bilməyəcəyimiz xoş xatirələr bizimlə qalır. Ona görə də 2014-cü il də ömür kitablarımızda yaşayacaq, tariximizdə vərəqlənəcək, tariximizi yaşadacaq. Bizdən sonrakı nəsillər də tariximizin bu səhifəsini ən qiymətli salnamə kimi dəyərləndirəcəklər. Çünki "Muxtariyyət ili"ndə Naxçıvanın taleyi üçün çox qiymətli sərvət olan muxtariyyətin bu qədim diyara bəxş etdiklərini gələcək nəsillərə olduğu kimi çatdırmaq üçün həyata keçirilən məqsədyönlü tədbirlər saya-hesaba gələn deyil. Muxtar respublika sakinləri 2014-cü ildə də bir daha gördülər və yəqin etdilər ki, bu qədim diyarda insan amilinə, onun layiq olduğu səviyyədə yaşamasına qayğı və diqqət günümüzün reallığına çevrilib. Bu reallığı hər addımda, ilin ilk günündən sonuncu gününə qədər gördük. Qurub-yaratmaq istəyimizi gücləndirən başlıca amil də məhz bu reallığı yaşamağımızdır. Kimlərəsə bu, təəccüblü görünə bilər. Əsl həqiqətdə də belədir. Muxtar respublikaya ölkəmizin digər bölgələrindən, xarici ölkələrdən gələn qonaqlar qədim diyarın belə intibaha qovuşmasına inana bilmirlər.*

Bu gün gülzarlıqlar, yaşıllıqlar, gözəlliklər diyarına çevrilən muxtar respublikada bərqərar edilmiş ictimai-siyasi sabitlik bütün sahələrdə böyük uğurlar qazanılmasında stimul olub. Daxili bazarda yerli istehsalın xüsusi çəkisinin artırılmasında, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında bunu bütün parametrləri ilə görmək olar.

Tarixən Naxçıvan aqrar region kimi tanınıb. Diyarın yeraltı və yerüstü sərvətlərindən, münbit torpaqlarından səmərəli istifadə olunması məqsədilə 1995-ci ildən bu sahə yeni inkişaf müstəvisinə qədəm qoyub, böyük layihələr həyata keçirilib və keçirilməkdədir. Vurğulamaq gərəkdir ki, paralel olaraq bu illərdə muxtar respublikada sənayenin inkişaf etdirilməsinə ciddi önəm verilib və böyük uğurlara imza atılıb. Məlumdur ki, sənayenin inkişafında ən böyük xammal bazası kənd təsərrüfatıdır.

"2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" böyük nailiyyətlər qazanılmasına stimul olub.

Ötən ilin statistikasına nəzər salsaq, bunun şahidi olarıq. 2014-cü ildə muxtar respublikada 2013-cü illə müqayisədə 6 faiz çox, yəni 355 milyon manatdan artıq kənd təsərrüfatı məhsulları istehsal olunub.

Bu qədər həcmdə məhsul istehsalında bir sıra amillər mühüm rol oynayıb ki, onlardan biri meliorasiya-irriqasiya sistemlərinin daim təkmilləşdirilməsi ilə bağlı həyata keçirilən tədbirlərdir. Bu sırada su anbarlarının doldurulması, suyun yığılması, kollektor və drenaj şəbəkələrinin inşası və təmiri, yeni kanalların tikintisi, nasos stansiyalarının təmiri və yararsız suvarma xətlərinin yenilənməsi işləri mühüm yer tutur. İl ərzində meliorasiya sahəsi üçün müxtəliftəyinatlı maşın-mexanizmlər alınıb. Uzunoba Su Anbarı yenidən qurulub, 2 nasos stansiyası tikilib və 9 kəhriz təmir olunub. Sahibkarların əməyini yüngülləşdirmək diqqət mərkəzində saxlanılıb. Onların vaxtında və güzəştli şərtlərlə lazımi texnika ilə təmin edilməsi məqsədilə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 2014-cü ildə 260 ədəd müxtəliftəyinatlı kənd təsərrüfatı texnikası alınaraq muxtar respublikaya gətirilib və məhsul istehsalçılarına verilib. Bundan başqa, məhsul istehsalçıları 3867 ton mineral gübrə ilə də təmin olunublar.

Aqrar sektorun inkişafına yuxarıda adlarını çəkdiyimiz dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin icrasının da böyük və müsbət təsiri şəksiz qəbul edilməlidir. Belə ki, ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün əkinəyararlı torpaqların səmərəli istifadəsi ciddi nəzarətdə saxlanılıb, 2014-cü ildə 60 min 829 hektar sahədə əkin aparılıb. Strateji məhsul sayılan taxıla olan tələbatın ödənilməsinə diqqət daha da artırılıb: 35 min 750 hektar sahədən 103 min 70 ton taxıl tədarük edilib.

Muxtar respublikada məhsuldar və keyfiyyətli buğda toxumlarının istehsalının stimullaşdırılması və daxili tələbatın ödənilməsi məqsədilə 2000 hektar torpaq sahəsi ayrılıb və toxumçuluq təsərrüfatı üçün yeni kompleksin inşasına başlanılıb.

Sözügedən dövrdə kartofçuluqda da yüksək nəticələrə nail olunub. 2962 hektar sahədən 41 min 406 tona yaxın məhsul tədarük edilib. Mətbəximiz üçün qiymətli məhsullar sayılan meyvəçilik və tərəvəzçiliyin inkişafı ərzaq təminatının yaxşılaşması ilə yanaşı, xarici bazarlara çıxış imkanlarının genişlənməsinə də şərait yaradıb, 2014-cü ilin məhsulu üçün tərəvəz əkilmiş 6125 hektar sahədən 66 min 731 ton məhsul götürülüb.

Əhalinin ilin bütün fəsillərində tərəvəz məhsulları ilə təchizatı üçün istixana komplekslərinin yaradılması davam etdirilib, il ərzində 6 yeni istixana kompleksi fəaliyyətə başlayıb. Ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində və ərzaq təminatının yaxşılaşdırılmasında dövlət ehtiyatlarının yaradılması, anbar təsərrüfatının inkişaf etdirilməsi də vacib şərt kimi nəzərə alınaraq muxtar respublikamızda taxılı uzun müddətə saxlamağa imkan verən anbarların həcmi 27 min tona, kənd təsərrüfatı məhsullarının saxlanılmasını təmin edən soyuducu anbarların sayı 20-yə, ümumi tutumu isə 12 min 250 tona çatdırılıb.

Kənd təsərrüfatının digər aparıcı sahəsi olan heyvandarlıq əhalinin ət və süd məhsullarına olan tələbatının ödənilməsində əhəmiyyətli rol oynamaqla yanaşı, həm də sənayenin xammal təchizatında mühüm çəkiyə malikdir. Bu sahənin inkişaf etdirilməsində mövcud ərazi imkanlarının məhdudluğu nəzərə alınaraq intensiv metodlara, o cümlədən heyvanların cins tərkibinin yaxşılaşdırılması tədbirlərinə daha çox üstünlük verilir. Son illər muxtar respublikaya 1678 baş yüksək məhsuldarlığa malik cins mal-qara gətirilib və onların lizinq yolu ilə satışı həyata keçirilib.

Heyvandarlığın inkişaf etdirilməsində, mal-qara arasında müxtəlif xəstəliklərə qarşı epizootik tədbirlərin aparılmasında baytarlıq xidmətinin günün tələbləri səviyyəsində qurulması mühüm rol oynayır. Bu baxımdan ötən il baytarlıq laboratoriyasının maddi-texniki bazasının gücləndirilməsi məqsədilə müxtəlif adda avadanlıq və cihazlar, həmçinin süni mayalanma ləvazimatları alınıb baytarların istifadəsinə verilib.

Qeyd edək ki, quş əti və yumurtaya olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsi məqsədilə tədbirlər ötən il də davam etdirilib. Daha 4 quşçuluq təsərrüfatı yaradılmaqla quşçuluq təsərrüfatlarının sayı 64-ə çatdırılıb.

Muxtar respublikamız üçün kənd təsərrüfatının ənənəvi və yüksək inkişaf perspektivlərinə malik sahələrindən olan arıçılığın inkişafına da ciddi önəm verilib. Yeni arıçılıq təsərrüfatlarının yaradılması məqsədilə il ərzində 525 min manat həcmində kredit verilib, balın emalı və qablaşdırılması ilə məşğul olan yeni təsərrüfat subyektləri fəaliyyətə başlayıb, arı ailələrinin sayı 69 minə çatdırılıb.

2014-cü il dekabr ayının 27-də keçirilən dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri bütün bunları nəzərə alaraq deyib: ***"Biz bu gün 2014-cü ilə yekun vurduq. 2015-ci ildə muxtar respublikada tarixən formalaşmış təsərrüfatçılıq ənənələri inkişaf etdirilməli, əhalinin ərzaq məhsulları ilə təminatı davamlı xarakter almalı, emal müəssisələri xammalla fasiləsiz təchiz edilməlidir. Muxtar respublikanın ərzaq təhlükəsizliyi və meyvə-tərəvəzçiliyin inkişafı ilə bağlı qəbul olunmuş dövlət proqramlarının icrası da kənd təsərrüfatına xüsusi diqqət yetirilməsini tələb edir. Qeyd olunanlar nəzərə alınaraq, 2015-ci il Naxçıvan Muxtar Respublikasında "Kənd təsərrüfatı ili" elan edilir".***

Bu isə o deməkdir ki, aqrar sahəyə qayğı, onun inkişafını diqqətdə saxlamaq davamlı xarakter alıb və bu, naxçıvanlıların genefondu məhz qədim diyara məxsus olan qiymətli kənd təsərrüfatı məhsullarından istifadəsinə istiqamətlənmiş növbəti addımdır...

***...2015-ci ilin ilk günlərini yaşayırıq. Necə qarşıladıq növbəti ili? Dükan-bazarlarımızda torpaqlarımızda yetişdirdiyimiz, həmçinin emal və istehsal müəssisələrində hasilə gətirdiyimiz məhsulların daha da bolluğu, çöhrələrimizdə təbəssüm, qəlblərimizdə sevinc, diləklərimizdə yurdumuzda belə günlərin əbədi olması istəyi ilə. Bu əbədiliyə bütün varlığımızla inanırıq. Çünki min illərdir, hər açılan sabah həyatın davamı olub. Bu həyat, bu yaşam möhkəm özüllər üzərində qurulubsa, onun gələcəyi gözlənildiyindən də yaxşı olacaq.***

**Muxtar MƏMMƏDOV**

## AMEA Naxçıvan Bölməsində “Türklər” çoxcildliyinin təqdimat mərasimi keçirilib



Yanvarın 6-da AMEA Naxçıvan Bölməsində Yeni Türkiyə Araşdırma və Yayın Mərkəzinin ərsəyə gətirdiyi “Türklər” çoxcildliyinin təqdimat mərasimi keçirilib. Mərasimi AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açaraq kitab haqqında məlumat verib. Çoxcildliyi ümumtürk tarixinə dair orijinal mənbə kimi qiymətləndirən akademik qeyd edib ki, bu əsər vasitəsilə keçmişdən günümüzə əcdadlarımızın – türk millətinin tarixini, mədəniyyətini, adət-ənənələrini, incəsənətini öyrənmək mümkündür.

Tədbirdə çıxış edən AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Emin Şıxəliyev “Ümumtürk tarixinə işıq tutan sanballı əsər: Türklər” adlı məruzəsində kitab haqqında geniş məlumat verib. Bildirilib ki, çoxcildlikdə tarixdən günümüzə türklərin qurduqları dövlətlər və imperiyalarla yanaşı, ayrı-ayrılıqda hal-hazırda mövcud olan türk respublikalarının da tarixi haqqında müfəssəl məlumatlar öz əksini tapıb. “Bu əsərdə Azərbaycan, hətta Naxçıvan tarixindən də bəhs edilib”, – deyən alim çoxcildlikdə əksini tapan maraqlı faktları diqqətə çatdırıb.

Tədbirdə bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev və Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktor müavini, AMEA-nın müxbir üzvü Qadir Qədirzadə çıxış edərək kitabda bəhs edilən bir çox məsələlərə diqqət çəkiblər.

Məlumat üçün bildirək ki, çoxcildlikdə AMEA Naxçıvan Bölməsi əməkdaşlarının da elmi-tarixi məqalələri yer alıb.

Naxçıvan haqda geniş məlumatın verildiyi mənbədə Naxçıvan buzxanası, məscidlər, hamamlarla yanaşı, Naxçıvan sancağı, Osmanlıların Naxçıvana səfəri, Naxçıvan xanlığı, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Dövlət Universiteti, Naxçıvan Muxtar Respublikası Ali Məclisi və naxçıvanlılara aid məlumatlar əsərin I, III, IV, V, VI, VII cildlərində öz əksini tapıb.

Sonda AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çoxcildliyin həm tədqiqatçılar, həm də ümumtürk tarixini öyrənmək istəyənlər üçün qiymətli mənbə olduğunu bildirib.

**Nərgiz İSMAYILOVA**

## Sərnişin daşınmasını yerinə yetirən sürücülərin iştirakı ilə seminar-müşavirə



***Tədbirdə Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin Ümumi şöbəsinin müdiri Yasin Əliyev çıxış edib.***

Qeyd olunub ki, muxtar respublikada avtomobil nəqliyyatı ilə sərnişin və yük daşınmasını həyata keçirən sürücülərin intizam qaydalarına uyğun fəaliyyət göstərmələri mütəmadi olaraq nəzarətdə saxlanılır. Bu qaydalara əsasən, sərnişindaşıma hüququ müvafiq ixtisas tələblərinə və sağlamlıq vəziyyəti müvafiq normalara cavab verən fiziki şəxslərə verilir. İctimai nəqliyyatda sərnişin daşınması ilə məşğul olan hər bir sürücünün idarə etdiyi avtomaşının fəaliyyət göstərməsi üçün xüsusi razılığın (lisenziyanın) verildiyini təsdiq edən sənəd olmalı, sürücülük rekvizitləri qanunvericiliyin tələblərinə cavab verməlidir.

Sonra nazirliyin Nəqliyyat müfəttişliyi və təhlükəsizlik şöbəsinin müdiri Elxan Novruzov çıxış edərək bildirib ki, avtomobil nəqliyyatı ilə sərnişin daşınmasını yerinə yetirən sürücülərin intizam qaydalarına necə əməl etmələrini yoxlamaq məqsədilə bir sıra reydlər keçirilib, keçirilmiş reydlər nəticəsində qeyri-qanuni sərnişin və yükdaşıma fəaliyyəti göstərən 331 avtonəqliyyat vasitəsi sahibi aşkar olunub, onlardan 300-ü lisenziyaya cəlb edilib, qalan 31 avtonəqliyyat vasitəsinin isə sənədləşdirilməsi işi aparılır. İntizama tabe olmayan, qanun pozuntusuna yol verən sürücülər isə Dövlət Yol Polisi əməkdaşları ilə birlikdə keçirilən reydlərdə saxlanılaraq barələrində müvafiq tədbirlər görülüb.

Vurğulanıb ki, qarşıya qoyulan başlıca vəzifələrdən biri də avtomobilləri vaxtında texniki müayinədən keçirməklə 2014-2015-ci ilin payız-qış mövsümündə avtonəqliyyat vasitələrinin saz vəziyyətdə istismar olunmasından ibarətdir. Bu mühüm əhəmiyyətli sahə də diqqət mərkəzində saxlanılıb, ayrı-ayrı rayonlarda payız-qış mövsümünə hazırlıqla əlaqədar reydlər keçirilib, avtonəqliyyat vasitələrində aşkar olunan nöqsan və çatışmazlıqlar aradan qaldırılıb.

2014-cü ildə muxtar respublikamızın rayon və kəndlərinə sakinlərin rahat gedib-gəlmələri məqsədilə bir neçə yeni marşrut da açılıb ki, bunlar Cəhri-Naxçıvan-Cəhri, Culfa-Naxçıvan-Culfa, Ərəfsə-Naxçıvan-Ərəfsə, Mahmudoba-Naxçıvan-Mahmudoba marşrutları olub.

“Nəqliyyat-yol kompleksinin yenidən qurulması istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini verib, şəhər infrastrukturunun mühüm sahəsi sayılan sərnişindaşıma xidmətinin günün tələbləri səviyyəsində qurulması üçün hər cür şərait yaradılıb”, – deyən Naxçıvan Şəhər Nəqliyyat İdarəsinin rəis əvəzi İlkin Məmmədov qeyd edib ki, 2014-2015-ci ilin payız-qış mövsümünü günün tələbləri səviyyəsində başa vurmaq üçün kompleks tədbirlər həyata keçirilir. 2014-cü il ərzində Naxçıvan Şəhər Nəqliyyat İdarəsi 10 ədəd “NAZ-Lifan” markalı taksi minik avtomobilindən, 9 ədəd “PAZ”, 5 ədəd “Liaz”, 37 ədəd “King-Long” və 2 ədəd “Mersedes-Benz Travego” markalı avtobuslardan səmərəli istifadə etməklə sərnişindaşıma xidmətinin intensiv və keyfiyyətli formada həyata keçirilməsi üçün bütün gücü ilə çalışıb.

Sonda sərnişindaşıma ilə məşğul olan sürücülərin sualları cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2014-cü ilin dekabr ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 1435 | 86,1 | 86,5 | 100,5 |
| 2. | Culfa rayonu | 1306 | 78,4 | 78,7 | 100,4 |
| 3. | Şahbuz rayonu | 515 | 30,9 | 31,0 | 100,3 |
| 4. | Kəngərli rayonu | 745 | 44,7 | 44,8 | 100,2 |
| 5. | Naxçıvan şəhəri | 3416 | 205,0 | 205,0 | 100,0 |
| 6. | Şərur rayonu | 1883 | 113,0 | 113,0 | 100,0 |
| 7. | Babək rayonu | 1970 | 118,2 | 118,2 | 100,0 |
| 8. | Sədərək rayonu | 350 | 21,0 | 21,0 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 21857 | 1311,3 | 1454,4 | 110,9 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **33477** | **2008,6** | **2152,6** | **107,2** |

**Qeyd:** Dekabr ayında texniki itki nəzərə alınmaqla daxil olan 33 milyon 477 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 8 min 600 manat olmuş, cəmi 2 milyon 152 min 600 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 107,2 faizini təşkil edir.

*Əmlak mənafeləri cəmiyyətdə mövcud olan bütün iqtisadi maraqları müəyyən edən əsas anlayışlardandır. Doğrudan da, əmək sərf edərək əmlak qazanmaq və rifah içində yaşamaq hər bir insanın əsas məqsədlərindəndir. Ancaq pul qazanıb əmlak əldə etməklə bərabər, eyni zamanda onun qorunması da əsas məsələlərdən biri sayılır. Baş verə bilən gözlənilməz bədbəxt hadisələr nəticəsində əmlaka dəyən zərərlərin əvəzinin ödənilməsi baxımından ev əmlakının könüllü sığortası mühüm əhəmiyyət daşıyır.*

## Ev əmlakının sığortası hər kəsin təminatçısıdır

Zəmanət anlayışına müasir dövrdə çox diqqət yetirilir. İnsanlar əldə etdikləri hər şeyi zəmanətlə almağı üstün tuturlar. Ona görə də risk sevməyən, onu özünə deyil, sığorta agentinə ötürməyi üstün tutanlar əmlakının zərər görməsi halında maddi itkilərin əvəzinin ödənilməsini də sığorta agentinin verdiyi zəmanətə bağlayırlar. Çünki bədbəxt hadisələr zamanı daşınmaz əmlakın özü ilə birlikdə, onun içində olan qiymətli əşyalar da məhv olub sıradan çıxır.

Bu baxımdan müasir dövrdə ev əmlakının sığortası çox geniş yayılmışdır. İnsanlar sığortanın faydalarını gördükcə icbari olaraq həyata keçirilən bir sıra sığorta növləri ilə bərabər, ev əmlakının sığortası kimi könüllü sığortalara da üstünlük verirlər. Elə gözlənilməz bədbəxt hadisələr vardır ki, bu zaman vətəndaşa dəyən zərərin əsas hissəsi elə ev əmlakının itirilməsi ilə yaranır. Məsələn, baş verə biləcək zəlzələ zamanı daşınmaz əmlak kimi evin özünə zərərdəymə ehtimalı daha çoxdursa, kiçicik yanğın, subasma kimi hadisələr zamanı daha çox evdəki bahalı əşyalar – mebel, xalça, elektrik cihazları və sair kimi qiymətli əmlak, demək olar ki, tamamilə sıradan çıxıb istifadəsiz hala düşür. İndi məişətimizə sıx daxil olmuş müxtəlif əşya və cihazların növ və çeşidinə nəzər saldıqda görürük ki, ev əmlakının sığortasını da maddi dəyər baxımından daşınmaz əmlakın icbari sığortası kimi eyni dərəcədə faydalı saymaq mümkündür.

Ev əmlakının itirilməsinə səbəb olan riskli hadisələr kifayət qədər çoxdur. Daşqın, fırtına, çovğun, torpaq sürüşməsi, ildırım düşməsi, habelə yanğın, qaz partlayışı, iri ağacların düşməsi, ağır nəqliyyat vasitələrinin çarpması, binanın əsas konstruksiyasının zərər görməsi, su, kanalizasiya, istilik sisteminin zədələnməsi, kənar mənzillərdən su daxil olması kimi hallar ev əmlakına zərər vura bilər. Ev əmlakının itirilməsi və ya məhv olması ilə yaranan maddi itkilər əmlak sığortası müqaviləsi bağlamış tərəflərin mövcud qaydalar əsasında razılaşdırılmış məbləğdə ödənilən sığorta ödənişləri vasitəsilə yerinə qaytarılır. Zamanı geri qaytarmaq mümkün olmasa da, itirilən məbləğin geriqaytarılma üsulları vardır.

Ev əmlakının sığortası könüllü sığortadır. Başqa sözlə, əgər icbari sığortalar tərəflərin istəyindən asılı olmayaraq və yalnız qanunla müəyyən olunan şərtlər daxilində aparılırsa, ev əmlakının sığortası kimi könüllü sığortalar müəyyən olunmuş qaydalar və tərəflərin razılığı ilə aparılır. Ona görə də ev əmlakının sığortası zamanı hər bir 18 yaşından yuxarı şəxs sığorta agentliyinə müraciət edərək onun üçün dəyərli olan əşyalarını sığorta etdirə bilər. Qeyd etmək lazımdır ki, bu zaman sığortaçı tərəfindən müəyyən olunan bəzi qaydalar vardır. Belə ki, hər bir evdə minimum məbləğlə (adətən 1000 manat) ifadə olunan ev əşyasının sığortası baxış keçirilmədən sığorta etdirənin yazılı müraciəti əsasında aparılır. Əgər sığortalı şəxs daha yüksək məbləğlə göstərilən bir müqavilə bağlamaq istəyirsə, bu zaman hökmən şəxsin daimi yaşayış yerindəki evdə həmin əşyalara baxış keçirməklə bu müqavilə bağlanır. Ancaq istənilən halda evdəki pul məbləği, sənədlər, əlyazmalar, zinət əşyaları, habelə ev heyvanları, quşlar bu sığorta növünə şamil olunmurlar. Çünki bunlar üçün ayrıca olaraq xüsusi bir sığorta növü müəyyən olunmuşdur. Ev əmlakının bu məqsədlə qiymətləndirilməsi zamanı isə evdəki əşyaların qruplar halında dəyərləndirilməsi və sığortalanması qaydasından istifadə olunur. Məsələn, evdəki mebel, xalça və cihazların sığortalanması zamanı onların həm qiymətləndirilməsi, həm də zərərgörmə ehtimalları nəzərə alınır. Məişət texnikasının elektrik nasazlığından yanması buna misal ola bilər.

Ev əmlakının sığortası geniş əhali təbəqələri arasında yayıldığı və sığorta predmeti olan ev əşyalarının da çeşidinin sürətlə artdığı bir dövrdə sığortaçılar tərəfindən müxtəlif praktikalardan geniş istifadə olunur. İqtisadiyyat inkişaf etdikcə insanların da istifadə etdikləri müxtəlif sayda qiymətli ev əmlakı əşyaları alınıb istifadə olunur. Və onların da bir çox müxtəlif səbəblərdən itirilmə və məhvolma ehtimalı vardır. Bir sıra bəzi səbəblərdən, məsələn, evdə digər şəxslərin hərəkətindən yaranan zərərlər, qapının açıq qalması nəticəsində ev əşyasının yox olması və müharibə vəziyyətində ev əmlakının zərər görməsi kimi hallardan başqa, digər bütün hallarda evə, onun içindəki əşyalara dəymiş zərərin əvəzi sığorta şirkəti tərəfindən ödənilir.

**Əli CABBAROV**

## *Elan*

Naxçıvan Şəhər Peşə Liseyi 2015-ci ildə tələb olunan ərzaq məhsullarının satın alınması üçün kotirovka sorğusu elan edir. Kotirovka zərfi 14 yanvar 2015-ci il tarixdə saat 11[00]-də açılacaq. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Əlaqələndirici şəxs: Abbasov Həsən Saleh oğlu***
***Telefon: 545-25-80***

***İtmişdir***

Xudiyeva Aysel Xəlil qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Növbəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 6